# HEYRAN XANIM

Şerlər

Pdfləşdirən: kitablar sayti

http://www.kitablar.com

Boyun sərvi-səhi, zülfün müənbər, Cəmalın Yusifi-Kənanə bənzər.
Qaşın aşiqlərin qəsdinə guya, Xəm olmuş tiqi-sərəfşanə bənzər, Açanda gözlərin alır bu canı, Yatanda fitneyi-dövranə bənzər. Baxanda naz ilə tiri-nikahın Könüldə xəncəri-bürranə bənzər. Dilin bülbül, saçın sünbül, üzün gül, Kəc olmuş kirpiyin peykanə bənzər- Məhi-rüxsarın, ey huri-behişti, Gül üzrə dəsteyi-reyhanə bənzər. Burub badi-səba zülfün dağıtmış, Gül üzrə dəstyi-reyhanə bənzər. Ləbi-ləli-şəfabəxşin, əzizim, Be-eynih çeşmeyi-heyvanə bənzər. Xalın hindusifət künci-ləbində, Oturmuş təxt əra sultanə bənzər. Sənin kuyində aşiqlər fəğani Çəməndə bu bülbüli-xoşxanə bənzər. Şərarəi-şurəngizindən, ey məh, Sərim də atəşi suzanə bənzər. Gözüm yaşı fəraqindən üzümdə Sərasər lölöi-qəltanə bənzər. Əgərçi aşiqin çoxdur və lakin, İnanma, heç biri heyranə bənzər.*/
/*Olubdu qəm yatağı, şad gördüyün könlüm Dağıldı qüssədən, abad gördüyün könlüm.
Diyari-qəmdə giriftarü dəstgir oldu, Kəməndi-firqətə, azad gördüyün könlüm.
Fəraq dərdinə axtardı, tapmadı çarə, Cəmii hikmətə ustad gördüyün könlüm.
Səriri-vəsldə Xosrovsifət oturmuşdu, Olubdu kuhdə Fərhad, gördüyün könlüm.
Fəraqi-möhnətə düşmüş pərişikəstə olub, Vüsal seydinə səyyad gördüyün könlüm.
hücumi-möhnətü qəmdən, süpehri-əlayə Yetirdi naləvü fəryad, gördüyün könlüm.
Çəkib şərarələr, etdi vücudimi, Heyran, Misali-kureyi-həddad gördüyün könlüm.*/
/*Bir namə yazım, badi-səba yarə yetirsin, Şərhi-qəmimi ol büti-xunxarə yetirsin. hicran ələmi saldı ayaqdan məni-zari, Daruyi-vüsali mənə bir çarə yetirsin. Səbrim kəsilib, yar mənim canımı alsın, Ya şad eləsin vəsl ilə, didarə yetirsin. Dünyadə və üqbidə körüş mətləbə yetsin, hər kəs məni ol yari-vəfadarə yetirsin. Bir yol verin ey möhnəti-hicran ki, pəyamım Ta badi-səba ol gülü gülzarə yetirsin. Yüz həsrət ilə bu dili-hicranə giriftar, Əzm etdi, özün ol güli-bixarə yetirsin. Yüz niş ilə səddi-rəh olub xari-sitəmkar, Qoymadı özün ol gülə biçarə yetirsin. Gəl tanrı üçün bunca sitəm eyləmə izhar, Qoy yarə özün bu dili-avara yetirsin. Bikəsliyimə rəhm eləsin xaliqi-biçün, Heyrani o şəhbazə digər-barə yetirsin.*/ /*Seyr edin, gərdəni minayə baxın! Sərimi saldı nə sövdayə baxın! Zülfi-müşkini salıb arizinə, Gün küsuf eyləyib, ol ayə baxın! Can alar qaşı, tökər kirpiyi qan, Mərhəba, ol oxa, ol yayə baxın! Qəmzəsi qanlar içib məst olub, Can alan nərgisi-şəhlayə baxın! Əksi-mey çöhrəsini al qılıb, Açılıb, ol küli-həmrayə baxın! Gör, bənövşə açılıb, ya ki, salıb Xətti gün arizinə sayə, baxın! Bükübən qamətini dal eləyib, Sərv tək ol qədi-rənayə baxın. hicri ol mahrüxün Heyranı Saldı Məcnun təki səhrayə, baxın!*/ /*Saldı məni ol kafəri-qəddar ayaqdan, Bir zalimi-bibakü sitəmkar ayaqdan, Neynim, nə edim kim, məni-sərgəştəni saldı, Ol cövrü cəfa mənbəi, xunxar ayaqdan. hicran ələmi aldı qərarımı əlimdən. Saldı nə deyim həsrəti - didar ayaqdan. Pərvanəni şəmin odu yandırdı dəmadəm, Gülşəndə salıb bülbülü bir xar ayaqdan. Kim bu, necə insaf idi, yaran, ki, salsın Öz aşiqini yari-vəfadar ayaqdan. Etmə bu qədər cövrü çəfa aşiqə, cana! Əlbəttə salır bu qədər azar ayaqdan. Saldı o sitəmpərvəri-bibak, cəfakar, Heyrani-sitəmdidəni yekbar ayaqdan.*/ /*Ya rəb, kərəm et, ol büti-məhparə qayıtsın, Bir rəhm eləsin bu dili-bimarə, qayıtsın. Bu dil ki, ona mənzil idi, oldu xərabə, Əzm etsə əgər yar, dəxi harə qayıtsın? Şanə çəkibən çin-çin elə, sal üzə zülfün, Qüllab kimi ucları rüxsarə qayıtsın.
Mürqi-dili-zarim genə avarə qalıbdır, Zülfün xəmin aç, ta ki, bu avarə qayıtsın.
Gəl rəhm elə, qoy aşiqi bir yarə yetişsin, Ərzin eləsin ol büti-xunxarə,

qayıtsın. Çün kövkəbi-bəxtim yetişib nəhs məqamə, Bir əmr elə, ta sabitü səyyarə qayıtsın. Əhd et, edəsən canüvi sən sidq ilə qurban, Heyran! Yar əgər bir də bu gülzarə qayıtsın.*/ /*Yetişib mücdeyi-canbəxş ki, canan gəliri Canibi-gülşənə ol sərvi-xuraman gəliri. Ayrılıq dərdi məni saldı ayaqdan, yarım - Etməyə bu dili-pürdərdimə dərman, gəliri. Əsibən badi-səba zülfi-siyahin dağıdıb, Mehr tək mah üzü oldu dirəxşan, gəliri . Qaməti sərvi-səhi, zülfi kəmənd-dilü can! Üzü gül, qaşı kaman, kirpiyi peykan gəliri Çün təbəssümlə olub ləl-ləbi dürrəfşan, Səhni -gülzar olub gülləri xəndan gəliri . Görsədib arizini, aləmi pürnur qılıb, Gün tülu etdi, üfüqdən məhi-taban, gəliri . Xəncəri-naz ilə qəmzə oxun almış əlinə Aşiqin qəsdinə bir afəti-dövran gəliri . O nə vəqtdir deyərlər, yar ötər şövkətilən, O nə gündür deyərlər: ol şəhi-xuban gəliri . gər yetişsən o şəhin xidmətinə, dön başına, Elə, heyran, canuvi sən ona qurban, gəliri -*/ /*Ey cümlə fəqirlər pənahi! Ey yer üzünun yekanə şahi! Çox həsrəti-eşqini çəkərdim, Yada salasan, bu bipənahi. Bu mərhəmətin məni-şikəstə Bilməm necə olub üzrxahi. Mən bikəsi çünki yad qıldın, Qurbanın olum sənin, ilahi! Xoş dəydi bu sinəmə xədəngin, Saldın mənə lütf ilə nikahi. Dalınca düşubdü dəstə-dəstə, Hər aşiq olub birər sipahi. Qeyrəz sənə səcdə etməyibdir, Heyranın hanı böyük günahi?*/ /*Bir bülbüləm, eyləmiş zəmanə Qəm oxlarına sinəm nişanə. Ey dilbərim, ol qaşın gör oxşar Əbruyi-müqəvvasi-kəmanə. O aldadıcı, şirin kəlamın Qıldı məni dəhrdə fəsanə. Tək mən deyiləm, min aşiqi sən Məcnun kimi eylədin divanə. Bu bikəsi-zari-natavanı Billah, gətirmisən amanə. Bir namə yazıb ciyər qanından Ol canibə eylədim rəvanə. Heyran əsiri-eşqin olmuş, Axır tutuşub çəkər zəbanə.*/ /*Ey hüsndə Yusifi-zəmanə, Rəhm eylə fəqirü natəvanə. Bir an səni görməyəndə, yarım, Əfqani yetirrəm asimanə. Əflakə kəmənd atdı sənsiz Hər ah ki, çəkdim aşiqanə. Yaqut ləbindəki təbəssüm Saldı genə könlümü gümanə. On dörd gecəlik bir ay üzün tək Billah ki, gəlməyib cəhanə. Kah qan tökər və gah içər qan, Ol sərvi-qədə budur nişanə. Heyran görüncə ay camalın, Oldu yenə eşqdə fəsanə. Yarım, mənə eylə bir nəzarə, Oldu ciyərim həzar parə. hicrində mənim həzin könlüm, Şölə çəkibən tökər şərarə, Bir ah çəkib fəğan edim mən, Ta od düşə dəştü kuhisarə. Can getdi sənin yolunda badə, Ey dust, bu dərdə varmı çarə? Leyli sən idin, səni sevənlər, Məcnun kimi düşdü ruzigarə. Çoxdur sənin aşiqin əgərçi, Bir mən kimi yoxdu bəxti qarə. Heyran! Gözü yolda qaldı, canan, Qıl çarə bu dərdi-intizarə.*/ /*Eşqində nəzar, həm qəmin mən, Qayətdə lətifü nazənin sən. Sən cümlə gözəllərin içində Xurşidcəmal, məhcəbinsən. Vəslində qalıb zəbanim aciz, Tərifdə mahi-biqərinsən. İnsan da olurmu boylə incə Ey şux, məgər ki, huri-eynsən? Sən tək hanı gövhər, ey pəriru! Lölöi-tərü düri-səminsən, Nə hüsn desən varındı, əmma, Nə faidə, xuyi-atəşinsən. Yarın səni atdı, getdi nakam Heyrani-fəqir, sən qəmisən!*/ /*Saldı məni taqətdən ol afəti-dövranım, Qıldı məni pəjmürdə ol zülfi-pərişanım. Bir şuxi-dilaradən, bir dilbəri-rənadən, Bir kafəri-tərsadən çıxdı yoxa imanım. Ey nazlı sənəm, sənsən hüsn aləminə sultan, Varmı günəşin hüsni səncə, məhi-təbanım? Qıvrım o saçın müşkə qalib gəlib aləmdə, Olmuş ləbinə təslim həm ləli-bədəxşanım, Ey nazlı gözəl, söylə ay şuxmudur, ya sən? Qaş-gözlə çalıb-çapdın qəlbimi, a sultanım! Göylərdə günəş yoxdur ruyin tək ola rövşən, Qamətdə misalın yox, ey sərvi-gülüstanım! Oldu boyuna bəndə Xosrov kimi yüz sultan, Yüz Yusifi hüsnünlə saldın tora, cananım. Sən hüsn, səfa kanı, mən mehr, vəfa kanı, Sən hüsnün ilə təksən, mən mehrim ilə,

canım! Aşiqlər arasında öz mehrü vüsalında Heyran kimi yoxdur, bu əhd, bu peymanım.*/ /*Ay üzlü dilbərim üzünə saldı çün niqab, Sanki, günəş tutuldu, edər xalq iztirab. Ahimlə gözlərinə çəkib sürmə sevgilim, Salmış iki çiyinlərinə zülfi-müşknab, Salsın tora deyə quşunu xəstə könlümün, Möhkəm hörüb o saçlarını eyləmiş tənab, Oxşar onun qara qaşı biçarə bəxtimə, Aşiqlərin qanında edib əllərin xəzab. İstəkli yarım istədi getsin, könül dedi: Getmə amandı, hicrinə yox məndə zərrə tab! Ovlaqda dövrəsində ikən dost-yar onun, Naz ilə aşiqinə belə eylədi xitab: Söylə, keçər gecən necə bu aycəmalsız, Gündüz işin adı nədir, ey xaniman xərab? Sorma, dedim, nə haldayam, daş urəkli yar, Can getdi əldən, oldu fəraqində bir kəbab, Heyran göz yaşilə sənə yazdı dərdini, Versən cavabını edəcəksən böyük savab.*/ /*O məclis içrə ki, oynar sevimli cananım, Ayüzlü dilbərim, ol afitabi-tabanım, Günəş camallı gözəllər tamam olar məhcub, O yerdə ki, üzünü göstərər o sultanım. Təravəti pozular gülşənin, gedər hüsni, Qədəm qoyarsa ona sərvi-xoş xuramanım. Ayaqlanarsa kəsik başlar hansı meydanda, Bilin, o ərsədə badə gedib mənim canım. O ənbərin saçına şanə vurma, rəhm eylə, Ki, onda daldalanar bu dili-pərişanım. Bilin o şəhrdə, kim, bir nəfər müsəlman yox, O şəhrdə yaşayır yari-namüsəlmanım. Gözəllərin hamısından gözəldi öz gözəlim, Cahanda başqasına vəsf qılma, Heyranım!*/ /*Sərvdir qamətin, ey mah, üzün bir güldür, Dövrəsində üzünün zülf və ya sünbüldür? Qamətin vəsfi, camalın sözü dillərdə gəzər, Hüsnünə nəğmə qoşan gülşən əra bülbüldür. Danə tək etdi könül mürqini ol xalın əsir. Zülfünü boynuma zəncir eləsən, qabildir. Çəkmişəm dəhrdə hər növ bəlalər, əmma Ayrılıq dərdi mənimçün hamıdan müşküldür. Vəslin, ey yar, sanardım özümə abi-həyat, Kim dedi zəhri-fəraqində məni zar öldür? Soruşursan nəsəbini bu yazıq Heyranın, Bir Əli xadimidir, cümlə cahanə bildir! Naxçıvan şəhrinin əşrafına çatsa həsəbi, Əslinə varsan əgər, tayifəsi Dünbüldür.*/ /*Bilirsən yarının bir yarı vardır, Rəqibinlə onun ilqarı vardır. Nə etmək, mən fəqirəm, yar sultan, Mənə yar olmasından arı vardır. Nə lazımdır mənə sünbüllə reyhan, Onun ki, türreyi-tərrarı vardır. Könül qəm çəkmə dəhrin külşənində, Açan hər bir gülün min xarı vardır. Yazıq Heyranı gəl incitmə, canan, Ki, aşiqdir sənə iqrarı vardır.*/ /*Könül fəraqi-yardə çəkib ahlar yandı, Bu xəstə canda tapılmaz səbr, qərar yandı. Boy atdı eylə ki, yadlar bağında sərvi-tərim. Alışdı ahım ilə gül, çiçək, nə var yandı. Edəndə ay üzü əğyar büsatın gülgün, Canımda qoymadı taqət bu qəm-qübar yandı. Rəqib əl atdı o vaxt ki, nigarımın telinə, Fəğan edən dili-zarımda əşkibar yandı. Baxanda ay üzünə nazlı dilbərin, billah, Kədərli könlüm olub xeyli intizar, yandı. Salanda boynuna, ey gül, rəqib qollarını, Zavallı canım alışdı, çəkib şərar, yandı. Könül gül üstə qonub, bülbüli-şuridə kimi, Oldu Heyran, həsəddən alışıb xar yandı.*/ /*Gözəl yarım, götür üzdən niqabın, Əyan olsun üzü qoy afitabın. Təmənna etmişəm, dilbər, xudadan, İki dünyada olsun kamiyabın. Fəraqından olubdur günlərim tar, İtirmişdir vücudum çünki, tabın. Sifariş eyləmişdin qasidinlə, Sevincimdən dilim tutmur cavabın. Günüz vəslə yolum yox, oğrular tək Gecə röyadə ollam vəsli-xabın. Ürək qanım sənin gülgün meyindir, Olub, ey yar, könul mürğum kababın. Yəqin qəlbin sənə bəxş etmiş Heyran, Odur ki, bitməyir dərdin, əzabın. */ /*Qəlbimdə məkan edən o dilbər Getdi taladı bu canı yeksər. Bundan da böyuk cəza olarmı, Qıydı mənə etdi o siminbər. Mən var ikən, ah, gözəl nigarım, Əğyar ilə kef çəkir bərabər, Bir gün çıxaram itaətindən, Tale mənə də olarsa rəhbər

Vallah, çataram murada mən də, İnsaf edə bilsən, ey dilavər. Bəxt ulduzumun qaraldı bəxti, Çün bürcü uğursuz oldu yeksər. Rəhm eyləmədi nədəndir, əfsus, Öz aşiqinə o zulmpərvər. Heyran ki, fəraqə düşdü, ey vah! Gəl kör özün halın, ey sitəmkar!*/ /*Ey badi-səba, sərv boy, ay üzlümü görsən, Mən quldan o sultana salamlar yetirərsən, İnsafa gəlib halımı hərgah soruşarsa, Can çəkməyimi sorğusuna müjdə verərsən. Misrin o gözəl Yusifinə könlümü verdim, Bir sor ki, Züleyxa nə üçün düşdü nəzərdən? Məcnun da sənin yarını, kər görsə, əzizim, Öz Leylisini bir daha anmaz bunu bil sən. Ey vah, nə edim, sevgilimi aldı əlimdən, Axırda fələklər də kəsildi mənə düşmən. Tanrım da bilir, zərrəcə torpağını yarın, hətta bu cahan mülkünə tərcih eləməm mən. Axırda əgər ümmidi-vəslin hədər olsa, Göylər alışar, od tutar odlu nəfəsimdən. Ahımla bütün dağları, səhraları billah, O kinli ürəklər kimi, zülmətli görərsən. Tut barı əlimdən, dolanım başına, dilbər, Arzum da, təmənnam da budur, ey üzü rövşən, Ey gül, daha allah da bilir istəmir Heyran, Sənsiz yaşamaq, duymamısan dərdini qəlbən.*/ /*Yuxumu, yoxsa həqiqətdə ki, sən Xəstə könlüm, yarını görmədəsən?! Nə vüsaldır bu qəribin yoxsa, Canını aldı o canan əhsən?! Lərzəyə düşdü canım, həm ürəyim Qan içən dilbəri gördükdə nədən?! Eylə təşvişə düşübdür ruhum, Bilmirəm hardadı gül, harda tikən. Həm müsəlmanlıq əlimdən çıxdı, həm də kafər xaçını atdım mən. həm ürək yandırıcı yaş tökdüm, həm də atəşli bir ah çəkdim həmən. Gör qara baxtımı ki, Heyranı Məhrum etdi yarının hüsnündən.*/ /*Kədərli könlümü görüb, səba, sən, O dilbərə fəğanımı yetir sən. De ki, ey daş ürəkli, zalım ovçu Vur eldür, ta ki, nalə etməyim mən. Xuda, ustadıma gəl eylə rəhmət, Mənə aşiqliyi öyrətdi qəlbən. Çıxart yoldan nigarımı, amandır, Mənə rəhm eyləsin o ruyi-rövşən. Nə etmək, qismətim budur, nə çarə, Vüsaliylə neçin olmur könul şən. De, söylə, yar, səni kim öyrədib ki, Məni anmaqla keçmir bir dəqiqən? Gəl, az qalır fəraq viranə qoysun Söz mülkünü Heyranın ta təmlədən.*/ /*Görsə Ay, ya ki, Günəş nuri-cəmalini sənin, Sovurar öz başına xaki məhalini sənin. Saydı aşiqlər o gül çöhrəni qəlb ayinəsi, Qiblə .etdi ürəfa əbri-hilalini sənin. Harut öz sehrini yaddan çıxarar, körsə əgər, O gözəl gözlərini, seyrü vüsalini sənin. Dirilik çeşməsidir sözlərin ariflər üçün Daha üstün sayır onlar ləbi-alini sənin. Tutmağa can quşunu tor ilə dən lazımdır, Dedilər tor saçını, dən isə xalini sənin, Xızr tək ölməz olar bağrına kim bassa yəqin O gül əndamını bir də pərü balini sənin. Tanrı odla çiçəyi yan-yana xəlq etmiş ki, Dərdli Heyran ətrindən duya halini sənin.*/ /*'Bülbül tək qəmindən nalanəm, ey gül! Naləmdə məşhuri-dövranəm, ey gül! Bu şəmi-ruyinə daim dövr edən Yazıq pərvanə tək suzanəm, ey gül Artmaqda möhnətim saətbasaət, Eşqində bitabü təvanəm, ey gül! Min Dəclə axıdır qanlı göz yaşım, Daima didəsi giryanəm, ey gül! Göz yaşım axdıqca sel kimi çoşur, Hər zaman mövcidi-tufanəm, ey gül! Sərəfraz edərsən mehmanım olsan, O xaki-payinə qurbanəm, ey gül! O zaman fələkə yüksələr şənim, Diyari-eşqdə sultanəm, ey gül! Qoy bəlan bu yazıq canimə gəlsin, Qarşında bəndeyi-fərmanəm, ey gül! Bütün dünya bilir ki, əzəl gündən Mən sənin ətrinə Heyranəm, ey gül!*/ /*Dilim bir bülbüli-biaşiyandır, Ona hər gül budağı bir məkandır. Çü dilbər getdi, əqlü din də geti, Dilü canım da ardınca rəvandır. Mənim yarım gözəllər içrə bil ki, Şahənşahi-zəminü asimandır. Gözü bir cənkcudur, qəmzə xunriz, Sitəmkər, səngidil, namehribandır. Nikahi fitnədir, xali füsunkar, Vəlakin qönçələb, şirinzəbandır. Əgər ölsəm yəqin bilsinlər,

axır, Məni qətl eyləyən qaşıkəmandır. Necə ərz eyləyim dərdi-dilimi, Ki, halım kamilən yarə əyandır. Nə bir gülşən tamaşası dilər dil, Nə meylim suyi-sərvü büstandır, Nə cahi-dünyəvi, nə huri-cənnət, Nə malü mülk, nə də kənçi-cahandır. Təmənnayi-dilim hər dü cahanda, Visali-ruyi-yari-mehribandır. Daha Heyranda yox bir özgə arzu, Bütün istəkləri ancaq hamandır.*/ /*Gördüyüm ah, yuxuydu, yoxsa ki, yar, Ya ki, tale bu səmtə etdi güzar? Görünən tək o mahru birdən, Oldu viranə bu dərü divar. Gözlərim ta sataşdı gözlərinə, Əqlü huşim başımdan etdi fərar. Kültənim gülşən oldu bir dəmdə, Yusif-asa güləndə ol dildar. Ürəyim titrəyib də çırpındı, Üzünə hər baxanda mən naçar. Sonra birdən o ruhi-canım tez, Min əzabla bədəndən oldu kənar. Baş ayağa qoyub, dedim qəlbən: "Ey küli-sərvqəddü, məhrüxsar! Elə et ta ki, bu zavallı könül, Tapsın ol vəslin ilə bir də qərar". Məst ikən qalxdı. min bəhanə ilə, Dilimi lal qıldı, qəlbimi zar. Əzmi-rah etdi ta rəvan olsun, Aləm oldu gözümdə tirəvü tar. Bu necə vəsl idi ki, Heyranı Eylədi min bəlayə, dərdə düçar?*/ /*Mənəm sərgəştəvü avarə, sənsiz, Qəribü bikəsü biçarə, sənsiz, Necə mən gülşənə azim olum, yar, Edim sərvə, gülə nəzzarə, sənsiz. Ürək hicran qılıncı, dərd oxuyla Olubdur kgr necə sədparə, sənsiz. Olub aləm kgzümdə tirəvü tar, Günəş də, ay da, bir səyyarə sənsiz. Şəbi-hiçranda bir özgə işim yox, Peşəmdir nalə, ey məhparə, sənsiz! Sənə təsir etməzsə ahi-Heyran, Fəqət təsir edir daşlarə, sənsiz.*/ * *
/*Əsiri-möhnəti-hicran mənəm, mən. Qəribü zarü sərgərdan mənəm, mən. O kglzari-vüsalindən uzaqda, Çü bülbül ruzü şəb nalan mənəm, mən. Nə mənzil, nə məkan, nə xaniman var, Cahanda xəstəyi-dövran mənəm, mən. Sənin hicrin ilə, ey şəmsi-taban, Bulud tək daima-giryan mənəm, mən. Bu məclisdə olub pərvanə misli, O nari-eşqilə suzan mənəm, mən. Əsiri-zülfün içrə yox mənim tək, Sədaqətlə sənə qurban mənəm, mən. Qanıma təşnəsən sən ey sitəmkar, Üzünə valehü Heyran mənəm, mən.*/ Xurşidi-taban, olmuş nümayan, Olmuş nümayan, xurşidi-taban. Zülfi-pərişan, xəm tapmış üzdə, Xəm tapmış üzdə, zülfü-pərişan. Ol çeşmi-fəttan, əqlimi aldı, Əqlimi aldı, ol çeşmi-fəttan. Ol tiri-müjgan, sancıldı qəlbə. Sancıldı qəlbə, ol tiri-müjgan. Ol ləli-xəndan, abi-həyatdır, Abi-həyatdır, ol ləli-xəndan. Ol kuyi-canan min qurban istər, Min qurban istər, ol kuyi-canan. Olmuşan Heyran ol məh cəmalə, Ol məh cəmalə olmuşam Heyran.*/ TƏRCİBƏND
/*haray,
kgldi-gedər, bu fani cahan! Etmişdir qəlbimi qanlı birümman. O yarın eşqindən qeyb olub huşum, Çıxıb Məcnun kimi əqlim başımdan. Çəkdim karvanımı biyabanlara, Yenə əql mənə oldu sariban. Apardı o məni bütxanayədək, Bütxanəçi çıxıb oradan haman, Soruşdu: - Nə oldu, hanı sevgilin, Onsuz necə keçir sənə bu dövran? Dedim: - Əhvalımı soruşma, ey dost, Qara eyləmişdir günümü hicran! Nə tabü təvan var məndə, nə ürək, Mümkünsə, eylə bu fərara dərman. Dedi: - Müştaqsansa xoş vüsalə sən, Yalvarıb çəkəsən gərək nalə sən! Sərsəmə döndərdi məni dərdi-yar, Keçsin deyə bağa eylədim güzar. Gördüyüm nəstərən, gördüyüm lalə, Elə bil, gözümdə oldu tikan, xar. Göy kimi guruldayıb çaxdım, gözümdən Bahar yağışı tək axıtdım yaşlar. Baş qaldırıb dedi bir şeyda bülbül: - Yardan ayrı düşmüş, ey aşiqi-zar! Mənə söylə görüm, necədir halın, Yarsız necə keçir sənə ruzigar? Söylə, de, keçirmi su boğazından, Qəlbində qalmışmı aram, ixtiyar? Dedim ki: - Söz açma hicrandan, ey dost, Çarə tap dərdimə, ol mənə qəmxar. Dedi: - Müştaqsansa xoş vüsalə sən, Yalvarıb çəkəsən gərək nalə sən! Günəş üfqə oldu naz

ilə rəvan, Məğribə o dəmdə çevirdi inan Nalə çəkə-çəkə getdim məclisə Ta ki, onda ola könül şadiman. Gördüm ki, yığılıb məclisə dostlar, Yoxdur onlar içrə o sərvi-rəvan. Od tutub alışdı qüssədən könül, Bağrım oldu tamam qanlı birümman, Orda pərvanəyə eylədim xitab, Ki: - Ey eşq oduna yanan hər zaman! Vardırsa sevgiyə əgər dərmanın, Bu canım, söylə ki, yandı, əlaman! Pərvanə gördü ki, mən də aşiqəm, Tezcə dilə gəldi həmin bizəban, Dedi: - Müştaqsansa xoş vüsalə sən, Yalvarıb çəkəsən gərək nalə sən! Dərdim olmadıqda ondan kamiyab, Üz tutub eylədim səhrayə şitab. Ənkin fələklərə baxdıqca baxdım Çarpan ürəyimdə yüz-yüz iztirab. Öz yerində idi bütün ulduzlar, Bircə kerünmürdü o üzü məhtab. Alışdı ürəyim hicran odundan, Baxıb ulduzlara eylədim xitab: Sizin də ayınız mənimki təki, Yoxsa kizlənmişdir, çəkərək niqab? Ulduzlar həyçana kəldi yerində, Müştəri də verdi belə bir cəvab: Ey avarə aşiq, eşitməmişsən, Xəbərin yoxmudur, ey xanə xərab, Bizi də odlamış o ay camallı, Dərdindən qəlbimiz olmuşdur kəbab. Soruşdum: - Bu dərdin nədir çarəsi? Əgər ki, bilirsən, de, olar savab. Dedi: - Müştaqsansa xoş vüsalə sən, Yalvarıb çəkəsən kərək nalə sən!.. Dedim: Əlacsızdır dərdim, kədərim, Ey səhər nəsimi, sən ol rəhbərim. Sənin gül nəfəsin ənbər qoxuyur, Olsun ayaq tozun qoy taci-sərim! Yoxdur havadarım səndən savayı, Fəqət sənsən yarım, vəfapərvərim. Məni qapısından qovdu sitəmlə, Ah, o daş ürəkli, zalim dilbərim. Kəsdi hümmətini, pozdu ilqarı, Odur ki, alışıb yanır ciyərim. Dönərəm başına, apar özünlə, Qoy bilsin dərdimi o cəfakərim! De ki, bu sevdayə bir çarə qılsın, Nə başda huşum var, nə də ki, səbrim... ... Baxdı məlul-məlul mən avarəyə, Belə cavab verib o mah sərvərim, Dedi: - Müştaqsansa xoş vüsalə sən, Yalvarıb çəkəsən kərək nalə sən! Nəsimdən də mənə olmadı çarə, Ürək, son ver, - dedim, - bu ahü zarə! Qəlbim cavab verdi göz yaşlarıyla: - Əcəb fəqirsənmiş sən, a biçarə! Kimin səbri çatar bu ayrılığa. Kimdə can qoymuşdur o mahiparə? Tamam bixəbərmiş eşq aləmindən, Daşürəkli gözəl, o zülfi qarə, Bir sitəmkar ahu, bir qəddar mələk, Hicrindən alışdım, tutuldum narə... Qəlbimdən soruşdum, nə eləyim, de, Bəs mən günü qarə, bəs mən avarə? Səbrü qərarimi aldı, neyləyim, Canımı həsrətlə üzən xunxarə? Dedi: - Müştaqsansa xoş vüsalə sən, Yalvarıb çəkəsən gərək nalə sən! Bir çarə etmədi niyaz, ərzi-hal, Ömrümü puç etdi bu cənkü cidal. Nə qaldı canımda tabü tavanım, Nə də ki, bir yana çıxardı xəyal, Bax, nə günə qoydu məni həsrətin, Ey dilbər, rəhm eylə, barı nəzər sal. Görürsən, saralıb necə solmuşam, Firqətin ayımı eyləmiş hilal. Tapşırdın ömrümü hicran əlinə, Canımı hicrana eylədin halal! Keçələr sübhədək axır göz yaşım, Bir ləhzə ah-nalə verməyir macal, Artıq ümid kəsdim qara bəxtimdən, Bildim: artıq mümkün deyildir vüsal! Mən eşq atəşində qovrulan dəmdə, Gəldi qulağıma qeybdən bir fal, Dedi: - Müştaqsansa xoş vüsalə sən, Yalvarıb çəkəsən gərək nalə sən!*/